# Anasının əsəri - Vaqif Nağıyev...



Ölkəmizin mədəniyyətini, incəsənətini vətəndən uzaqlarda yüksək səviyyədə təbliğ edən, ona şöhrət gətirən istedadlı gənclərimiz çoxdur.

Belə istedadlı gənclərdən biri də geniş səs diapazonuna malik, ecazkar səsi, ifası ilə özünə çoxlu pərəstişkar qazanan vokalist Vaqif Nağıyevdir. 2013-cü ildə Ukraynanın Kiyev şəhərində keçirilən "Голос Украины" musiqi yarışmasındakı ifası ilə məşhurlaşan Vaqif bütün uğurlarını istedadla bərabər, həm də zəhməti hesabına əldə edib. Əlbəttə, bu uğurlarda mükəmməl təhsilin də öz rolu var. Doqquzuncu sinfə qədər Bülbül adına Musiqi Məktəbi, sonra Moskva şəhərində Qnesin adına kollecdə bir illik tədris, SSRİ Xalq artisti Leonid Yekimovdan aldığı ustad dərsləri, Bakıda Tofiq Quliyev adına musiqi məktəbi, Xarkov şəhərində Mədəniyyət Akademiyası, Kiyevdə Qliyer adına Musiqi İnstitutu, İtaliyada bir illik ustad dərsləri və yenidən Kiyevdə Qliyer adına Musiqi İnstitutu. Başdan-başa musiqiyə, sənətə, arzuladığı karyeraya doğru yönəlmiş bir həyat yolu. Əslində isə onun karyerası hələ üç yaşı olarkən tanınmış bəstəkar Oqtay Zülfüqarovun "Aysel" musiqi kollektivinin tərkibində Heydər Əliyev adına Respublika sarayının səhnəsindəki çıxışıyla başlayıb. İlk baxışdan bir qədər qəribə görünsə də, təəccüblənməyə dəyməz. Axı Azərbaycan həmişə istedadlı uşaqlarla dünyaya səs salmağı bacarıb. Hələ kiçik yaşlarından ölkəmizdə qazanılan şöhrət, sonralar vətəndən uzaqda - Ukraynada daha da genişlənib, zirvələrə qalxıb. "Голос Украины" səs yarışmasındakı əfsanəvi Müslüm Maqomayevin repertuarından "Синяя вечность" ("Mavi sonsuzluq") mahnısı onu həm qeyri-millətdən olan, dilimizi bilməyən peşəkar musiqiçilərdən ibarət olan münsiflərə, həm də böyük tamaşaçı kütləsinə sevdirdi. Bu, ölkəmiz üçün qürurverici hadisə idi. Vaqif özü isə müsahibələrindən birində bu mahnı ilə bağlılığını belə ifadə edir: "Bu mahnını ifa etmək mənimçün böyük fəxrdir. Məni çox zaman zarafatla Dəniz-Vaqif, Vaqif-Dəniz deyə çağırırlar. Biz bu mahnı ilə artıq bir bütün olmuşuq. Mən bu mahnını bütün ruhum və cismimlə hiss edirəm, onu ifa



edərkən özümü çox xoşbəxt sayıram. Təbii ki, mən heç vaxt onu dahi Müslüm Maqomayev kimi ifa edə bilmərəm. Lakin çox sevinirəm ki, insanlar ifamı bəyənirlər".

Gənc vokalçının Müslüm Maqomayevin repertuarına müraciət etməsi bir tərəfdən onun böyük sənətkara olan heyranlığından qaynaqlanıbsa, digər tərəfdən də tale işi olub. Onun səs tembrindəki Müslüm Maqomayevin səsinə olan bənzərlik də bu uğura imkan verən amildir. Sonralar onun Ukraynanın Xalq artisti, Luçano Pavarottinin tələbəsi olmuş Vladimir Qrişko ilə birlikdə Ukraynanın on beş şəhərində Müslüm Maqomayevin yubiley konsertlərində iştirak etməsi, böyük sənətkarın mahnılarını yüksək səviyyədə ifa etməsi də böyük məhəbbətin təzahürü idi. Bu konsertlərdə qazanılan alqışlar həm də Azərbaycanın mədəniyyətinə, incəsənətinə verilən dəyər idi.

Vaqif Nağıyev istedadlı musiqiçi kimi ölkəmizi təmsil etməklə bərabər, həm də ictimai fəaliyyətinə görə örnək göstərilesi bir gəncdir. O, 2019-cu ildə təsis edilmiş Ukrayna Azərbaycanlıları Gənclər Təşkilatının sədridir, Ukraynada yaşayan Azərbaycan gənclərini bir araya gətirərək vətənimizin təbliğatı üçün yorulmadan çalışıb. Təşkilatın əsas məqsədi ölkəmizin mədəniyyətini, incəsənətini, elmini, adət-ənənələrini təbliğ etməklə yanaşı, həm də Qarabağ həqiqətlərini, bu münaqişədə haqlı tərəf olmağımızı Ukrayna vətəndaşlarına, eləcə də dünyaya çatdırmaq olub.

Hələ illər əvvəl erməni terrorçularının dinc əhaliyə etdiyi hücumlar nəticəsində Füzuli rayonunun Alxanlı kəndində qətlə yetirilən 18 aylıq Zəhraya həsr etdiyi mahnını Beynəlxalq Muğam Mərkəzində müharibələr və digər silahlı konfliktlər nəticəsində həyatını itirmiş uşaqlara həsr olunan tədbirdə məharətlə ifa etmişdi. Bu mahnı da tədbirin başqa mahnıları kimi finalda səsləndirilmiş "Müharibəni dayandırın ki, heç yerdə uşaqlar ölməsin" şüarına dəstək idi.

Bu günlərdə gənc və istedadlı vokalçımız vətəndə ilk solo-konsertini dinləyicilərinə təqdim etdi. Çox sadə və sərbəst formatda təşkil edilmiş konsertdə zalın dop-dolu olması, tamaşaçıların böyük sevgi və heyranlıqla bu istedadlı gəncə dəstək verməsi son dərəcə təsirli idi. Konsert başlayan kimi elə ilk mahnıları dinləyincə düşünürəm ki, dərgimizin bu sayında Vaqifdən, onun keçdiyi yoldan mütləq bəhs etməliyik. Gözündə yaş parlayaraq, səsindən yağan kövrəklik və minnətdarlıqla "Əziz anam" (mus: S.Əliyeva, söz: F.Qoca) oxuyan Vaqif bu qərarımı bir az da qətiləşdirir. Axı insan Anasının əsəridir. Vaqif Nağıyev isə aldığı tərbiyə, mükəmməl musiqi təhsili, vətənpərvərliyi və alicənablığı ilə anasının çəkdiyi zəhmət, övladına həsr etdiyi ömür haqqında tam təsəvvür yaradır. Tanrıdan gələn istedad münbit şəraitə, doğru ünvana düşdüyü üçün uğurlu nəticə verib. Və elə "Laylan ellər aşar" deyincə barmaqları titrəyən gənc Vaqif sadaladığım bioqrafik məqamların arxasındakı əziyyəti, fədakarlığı da göz önünə gətirirdi.

Son illərdə dünyanın hər yerində, ən yüksək səviyyəli teatr-konsert salonlarında azərbaycanlı səslərin eşidilməsi, böyük sevgi və heyranlıqla qarşılanması sevindiricidir. Dahi Müslüm Maqomayevin ruhu şaddır ki, açdığı cığırla bu cür uğurla addımlayan ardıcılları var. Vaqif Nağıyevin də iradəsi, əzmi, zəhməti, istedadı sayəsində bu yolda daha üstün məqamlara yetişəcəyinə şübhə yoxdur. Çünki bütün konserti boyu səsinin ən müxtəlif imkanlarını ortaya qoyan gənc sanki bir bulaq suyu kimi saf, aşıb-daşan istedadına inam yaratdı bizlərdə.